# Qarabağda su ehtiyatlarının idarə edilməsi kənd təsərrüfatının inkişafına təkan verəcək

***Prezident İlham Əliyev Tərtər rayonuna səfəri çərçivəsində Suqovuşan qəsəbəsində çıxış edərkən bildirib ki, bu gün azad edilmiş torpaqlarda - Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı çox ciddi proqram icra edilir.***



Dövlətimizin başçısı Suqovuşan su anbarının bölgə üçün çox böyük strateji əhəmiyyət daşıdığını vurğulayaraq, deyib ki, bu mühüm obyekt Sərsəng su anbarı ilə bərabər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilib. Hər iki su anbarının istismara verilməsində əsas məqsəd keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarının kənarında yerləşən Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək olub.

Prezident İlham Əliyev daha sonra xatırladıb ki, işğal zamanı mənfur düşmən Azərbaycana qarşı ekoloji terror–su terroru da törədirdi. Hətta Avropa Şurası Parlament Assambleyasının sessiyalarının birində bu məsələ ilə bağlı təqdim edilən xüsusi məruzə əsasında qətnamə qəbul edilmişdi və orada Ermənistan dövləti ittiham olunmuşdu. Əlbəttə, bu, ölkəmizin böyük uğuru idi. Təsadüfi deyil ki, ondan sonra bu məruzəni hazırlayanlara qarşı erməni lobbi təşkilatları mənəvi terror siyasəti aparmağa başlamışdı.

Azərbaycan Prezidenti Suqovuşan qəsəbəsinin azad edilməsi və su anbarının respublikamızın nəzarətinə keçməsi nəticəsində artıq Ermənistan dövlətinin əlindən bu imkanların da çıxdığını bildirib.

Dövlətimizin başçısı daha sonra deyib: “İndi buraya biz hakimik. Bu il Suqovuşan su anbarından istifadə edərək 30 il ərzində ilk dəfə olaraq Tərtər və digər rayonlara su verildi. Bu günə qədər suvarılmayan, yaxud da ki, az suvarılan 30 min hektar torpağa bu qəsəbənin azad edilməsi nəticəsində su verilmişdir və indi kanallarda təmir işləri gedir. Bizim azad edilmiş torpaqlarda - Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir. Artıq su mənbələrinin bütün xəritələri tərtib edilib və yeni su anbarlarının tikintisi gündəlikdə duran məsələdir”.

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri intensiv şəkildə həyata keçirilir. Suqovuşanda su elektrik stansiyalarının istifadəyə verilməsi məhz bu istiqamətdə reallaşdırılan tədbirlərin sistemli xarakter daşımasından xəbər verir.

Suqovuşanın azad edilməsi 4 rayonun su ilə təminatına xüsusi töhfə verəcək. Nəzərə alaq ki, su hövzəsinə nəzarətin həyata keçirilməsi, bütövlükdə həmin ərazilərin işğaldan azad olunması xüsusən kənd təsərrüfatında suvarma sularına olan tələbin ödənilməsində xüsusi paya malikdir. Eyni zamanda, su elektrik stansiyalarının bərpa edilməsi, həm də həmin ərazilərdə yaşayan və məskunlaşacaq vətəndaşlarımızın elektrik enerjisi ilə təminatının ödənilməsində xüsusi rol oynayacaq. Bu, elektrik şəbəkəsinin inkişaf etdirilməsi, elektrik enerjisinə çıxışın əlçatanlığının artırılması baxımından da vacib hesab olunur.

Bütövlükdə, işğaldan azad olunmuş ərazilərimizdə olan su ehtiyatlarının idarə edilməsi Qarabağda, Şərqi Zəngəzurda kənd təsərrüfatının inkişafına dəstək olacaq, digər tərəfdən yayda suya olan tələbin ödənilməsində müəyyən çətinliklərin xeyli azalmasına imkan verəcək. İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən infrastruktur layihələri həmin ərazilərdə iqtisadiyyatın bərpa edilməsinə, Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyasına təkan verəcək. Bu ondan xəbər verir ki, məskunlaşma prosesi proqnozlaşdırıldığından daha tez həyata keçirilə bilər.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 6 oktyabr.- S.13.